# "Azərbaycan"a sevgi Azərbaycana sevgidir

**Şeir zaman-zaman yazan (şair) üçün də, oxuyan (oxucu) üçün də ruhi rəvanlıq olub. Xalqın ruhu bayatılarla durulaşıb, deyimlərlə, poetik kəlamlarla, gəraylılarla, qoşmalarla, ustadnamələrlə, formalaşıb, cilalanıb. Nə vaxtsa yazılmış şeir xalqın ruhunun, xəlqi ruhun şeiriyyətinin zərrəsi olursa, yaşadılır. Yaşadılır və sevilir, sevilə-sevilə yaddaşlarda tarixləşir. Belə şeirləri tarixi şəxsiyyətlər də yüksək dəyərləndirirlər. Onlar da belə şeirləri özünə könül ovqatı bilirlər.**




Səməd Vurğunun "Azərbaycan" şeirini azərbaycançılığın poetik manifesti də adlandırardım (adlandırıram). "Azərbaycan" xalqın şeiridir, xalqın Azərbaycana şeiriyyət monoloqudur...

"Azərbaycan" şeiri böyük tarixi şəxsiyyət Heydər Əliyevin də ruhunun şeiri idi. Ulu Öndər "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" qürurunun işığında "Azərbaycan"ı duyğusallıqla, sevgilərlə, bir qədər də kövrəkliklə (bu kövrəklikdə Azərbaycana sevginin ahənrübalığı da vardı) deyirdi. Şeirin bir bəndi birömürlük sədaqət nuruna dönmüşdü:

*El bilir ki , sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma Vətənimsən,*
*Ayrılarmı könül candan,*
*Azərbaycan, Azərbaycan!*

Belə şeirlərin sərhədi olmur.

Bu şeir mayın 28-i Müstəqillik Günündə Laçında da səsləndirildi. Laçın Beynəlxalq Hava Limanının açılışından sonra Azərbaycan, Türkiyən və Pakistan liderlərinin Zirvə görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan səsləndirdi. Bu səsləndirmə "Azərbaycan "a sevgi idi, Azərbaycana sevgi idi, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasının qürurunun şeiriyyətiydi, türk ruhunun - türkün ruhunun haləsiydi, dünya üçün laçınlı gerçəkliklərin duyğulaşmış ifadəsiydi.

İkinci Qarabağ müharibəsində Türkiyə Azərbaycanın yanında idi. Mənəvi dəstəyi hərbi dəstək tamamlayırdı. Bu, iki qardaş dövlətin dövlətçiliyinə qarşılıqlı ehtiramın, sevginin təzahürü idi. Şuşa Bəyannaməsi bu iki qardaş dövlət arasında təkcə hərbi əməkdaşlıq haqqında sənəd deyil, həm də qardaşlığın mənəvi təsdiqi olan sənəddir!

Rəcəb Tayyib Ərdoğan Zəfər paradında demişdi: "Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarında duman artıq dərdli deyil. Girov qalmış xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Kondələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. "Qarabağ şikəstəsi"ni oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır". Onda bu şeiriyyət hansı sevgilərlə dinlənilmişdisə, "Azərbaycan" şeiri də həmin sevgilərlə dinlənildi. Dinləyənlər Çanaqqalada qazanılan qələbəni xatırladı, Böyük Millət Məclisində Mustafa Kamal Paşa Atatürkün möhtəşəm çıxışını xatırladı, Qafqaz İslam Ordusunu, Bakının işğaldan azad edilməsini xatırladı, 2020-ci ilin 8 noyabrını xatırladı, Şuşa Bəyannaməsini xatırladı, 2023-cü ilin 19-20 sentyabrını xatırladı...

Hamının könül xoşluğunu göy üzünün aydınlığında düşüncələrinin nizamı tamamlamışdı. Bu fikirlər kövrək, düşündürücü bir bayatının davamıydı sanki...

Həm də duyanlar, ruhu rəvanlar, düşüncələri "Bir millət, iki dövlət" kəlamının fəlsəfəsinin işığına sarılanlar bilir ki, bu kəlmələrin mahiyyətindəki poetikanın nəqaratı "Azərbaycan" şerinin aşıladığı "Can Azərbaycan"dır...

Gözəl şeir, düşündürücü şeir, ruhun şeiri həm də mənəvi dəyərləri yaşatma vasitəsidir. Böyük Səməd Vurğunun azərbaycançılığın poetik manifesti olan "Azərbaycan" şeiri həm də ruhun doğmalığının, qardaşlığının şeiridir. Yaşadılır, yaşadılacaq. Laçında tarix bir daha şahidi oldu ki, "Azərbaycan"a sevgi həm də Azərbaycana sevgidir.

***Rəşid FAXRALI,***
***Əməkdar jurnalist***

Azərbaycan.- 2025.- 15 iyun (№ 122).- S.15.